# Ekoloji turizm




Astara Rayon Mədəniyyət və Turizm Şöbəsinin məsləhətçisi Əfqan Cövhər Şəfiyevin müəllifliyi ilə çap olunmuş bu kitabda son illər respublikamızda turizm sənayesinin inkişafı ilə bağlı görülən işlər, mədəni irsin, adət ənənənin, daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, eləcə də Azərbaycan xalqının ta qədim zamanlardan qaynaqlanan süfrə, qonaqpərvərlik mədəniyyətinin təbliği sahəsində turizmin rolu məsələləri geniş yer almışdır.

Kitabda həmçinin müəllifin ayrı-ayrı turizmlə, ekologiya ilə əlaqədar müxtəlif kütləvi informasiya vasitələrində dərc etdirdiyi yazılar, bölgədə ekoloji turizmin inkişaf etdirilməsini təmin edə biləcək təbii resurslar, bölgənin endemik və relikt yaşıllıq fondu, nadir fauna nümunələri, turizm marşurutları, "turistin əxlaq kodeksi", diyar turizmi və s. öz əksini tapır.

Oxuculara təqdim edilən kitab, eləcə də daşınmaz tarix və mədəniyyət abidələrimizin təbliği, təbiətin qorunması, bioloji resurslardan səmərəli istifadənin tənzimlənməsi sahəsində müəyyən bilgilərin mənimsənilməsində layiqli bir töhfədir.

**Şahin FƏRƏMƏZOV**,
*zona müxbirimiz*